MİLLİ MƏTBUATIMIZIN 140 İLLİYİNƏ DƏYƏRLİ TÖHFƏ

Bəşəriyyətin ən böyük kəşfləri sayılan çörək və kitabdan hər biri insanın tələbatının ödənilməsinə xidmət edir: çörək cismanı, kitab isə mənəvi baxımdan. Hər ikisinin hazırlanma qaydası müxtəlif texnologi proseslərdən keçib yüksək tələbə cavab verə biləcək müasir vəziyyətə gəlib çıxmışdır. Çörəyin hazırlanma (bişirilmə) texnologiyası bu gün müasir tələblərə uyğun, keyfiyyətli çörək istehsal etməyə imkan verdiyi kimi, kitabın hazırlanma üsulları da ilkin yazı mərhələsindən hazırkı çap məhsullarına kimi uzun bir tərəqqi yolu keçib təkmilləşmişdir.

Elə ömrünün 37 ilini Azərbaycanın nəşriyyat-poliqrafiya sistemində çalışmağa sərf etmiş və hal-hazırda da "Azərbaycan" nəşriyyatında istehsalat şöbəsinin rəisi vəzifəsini icra edən tanış üzrə fəlsəfə doktoru İradə Hacı qızı Ələsgərovanın qələmə aldığı "Azərbaycan kitabının bədii və texniki tərtibat tarixi" (Bakı, "Təhsil", 2015) kitabının yazılmasında başlıca məqsəd Azərbaycan kitabının tarixi inkişaf yoluna nəzər salıb qarşıdakı perspektivləri müəyyənləşdirməkdir.

ADMİU-nun "Ədəbi yaradıcılıq və ekran dramaturgiyası" kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Aqşın Babayev kitaba yazdığı ön sözdə monoqrafiyanın əhəmiyyətindən söz açıb, əsəri nəzəri materialla istehsalat praktikasının vəhdətindən doğulan əsərlərə aid olmasını qeyd etmişdir. Müəllifin "Kitab tədqiqata yazar, ədəbi, bədii, texniki redaktor və poliqrafiya mütəxəssislərinin birgə əməyinin məhsulu kimi çəlb edilir, bu sənət sahiblərindən hər birinin vəzifəsi aydınlaşdırılır, funksiyalarının qarşılıqlı uzlaşdırılması aparılır, uğurlar qeyd edilməklə yanaşı, çatışmazlıqları doğuran amillər və onların aradan qaldırılması yolları göstərilir. Kitabın tərtibat xüsusiyyətlərinin çap üsullarının imkanları, poliqrafiya texnika və texnologiyasının inkişaf səviyyəsi ilə bağlı araşdırılması həyata keçirilir, bədii tərtibat üsullarının təsnifatı verilib ifadə vasitələri dəqiqləşdirilir. Bu da kitabın başlıca tərtibat meyarlarını müəyyənləşdirməyə imkan verir. Maddi-texniki bazanın kitab tərtibatında rolu və yeri, nəşrin kompozisiya və bədii poliqrafik forması, həmçinin bütün bunların psixofizioloji amillər də daxil olmaqla mətnin dərkolunma səviyyəsinə təsiri tədqiq edilib aydınlaşdırılır.

Bu fikirlərə əlavə kimi qeyd edim ki, İradə Ələsgərovanın bu əsərində kitaba sinkretik sənət növü kimi yanaşılır, nəşrin tərtibatı məsələlərinə müxtəlif sahə mütəxəssislərinin birgə əməyinin yekun nəticəsi kimi baxılır: "Cizgi, şrift, sətirlərarası məsafə, rəng və s.-nin birləşib vahid orqanizm təşəvvürü yaratması nəşrin özəlliyini təmin etməklə yanaşı, həm də məzmunun oxucu tərəfindən dərk olunmasına və onun beyninə yaranan rəya konkret təsir göstərir".

Bu bircə cümlədə, İradə xanım tərtibatın nəşrdə yerini müəyyənləşdirir, kitabın maddi əsasını təşkil edən hərf və cizgilərin hansı ölçüdə və rəngdə verilməsinin diqqətdə saxlanılmasının vacibliyini vurğulayır. Kitabda gördüyümüz nə varsa hamısını vahid orqanizm kimi vəhdətdə götürən müəllif, oxucunun aldığı məlumata bu estetik amillərin göstərdiyi təsirin böyüklüyünü dəqiqləşdirir. Beləliklə, kitabın forması, ölçüsü, yazı qrafikası və s. kimi belə da ilk baxışdan diqqəti çəkməyən bu kimi xırdalıqların, əslində oxucunun zehnində kəskin reaksiya verib oxunan mətnin anlaşılmasında prinsipial rol oynadığını diqqətə çatdırır. Fəlsəfi terminlərlə desək, kitabın bədii və texniki tərtibatının məzmunla uzlaşmasının, yəni forma və məzmun uyarlılığının, həm də nəşrin məzmun dolğunluğunu təmin etdiyini İsbata yetirir. Deyilənləri, müəllifin nəşrin giriş hissəsində yer almış aşağıdakı fikirləri də təsdiqləyir: "Kitaba verilən tərtibatın mətnin dərkedilmə səviyyəsinə göstərdiyi təsirin həcmini böyüklüyü əbədi, texniki və bədii redaktorlardan poliqrafiya texnikasının imkanlarını, texnologiyanın tələblərini nəzərə almağı, nəşri bu tələblər çərçivəsində layihələşdirməyi tələb edir. Nəşrə, əsərin ideya-mövzu əsasına uyğun tərtibat verib oxucunun nəzərini kitaba yönəltməyi bacaran tərtibatçı yazarın cəmiyyətdə tanınıb ictimai rəyə təsir göstərmək imkanı əldə etməsini, deməli, uğurlu nəşrlərin də ünvanlandığı oxucu auditoriyasına çatdırılmasını təmin etmiş olur".

Göründüyü kimi, tədqiqatçı, yuxarıda da qeyd etdiyimiz kimi mövzunun dərinliyinə baş vurub kitabı sinkretik sənət müstəvisində araşdırır. Belə ki, ədəbi, texniki təvsifdə redaktorların hər birindən poliqrafiya işinin incəliklərinə yiyələnməyi tələb edən İradə xanım, kitabın tərtibatı ilə mətnin dərkolunma səviyyəsi arasında olan üzvü bağlılığı açıb göstərmiş olur. Bu məntiqi təhlildən həm də o nəticə çıxır ki, kitabın mövzu yeniliyi, məzmun dolğunluğu ilə yanaşı, həm də yüksək poliqrafik icra keyfiyyəti, məntiqəuyğun tərtibatı, bitkin kompozisiyası ilə seçilməsi, məzmunla formanın bir-birini tamamlaması vacib şərtdir.

Nəşrə verilən tərtibatın onun təyinatına uyğun olub əsas ideya-süjet xəttinə köklənməsi, yaranın ictimai rəyə göstərdiyi təsirin həcminə öz təsirini göstərə onun uğur qazanmasını təmin edir. Bax, kitabın belə hərtərəfli, dərin analitik təhlilin işığında və sinkretik müstəvidə tədqiq edilib araşdırıldığı bu monoqrafiyada kitab bizə sadəcə kağız parçası, poliqrafiya məmulatı kimi deyil, mətnin dərkolunma səviyyəsinə həlledici təsir göstərə cəmiyyəti bu və digər hələ istiqamətləndirə, köklə-yə biləcək oxu vasitəsi kimi təqdim edilir. Bununla da, kitabla bağlı ənənəvi təsəvvürlərimiz, mövcud stereotiplər dağıdılır, kitab növbəti, daha yüksək səviyyəyə qaldırılır.

Əlbəttə, bütün bunların gerçəkləşdirilməsi həm də çap texnikasının müasir standartlar səviyyəsində olmasını tələb edir, redaktorların boynuna ağır və məsuliyyətli bir yük qoyur. Bunu, müəllif özü belə şərh edir: "Əlyazma kitablarından fərqli olaraq, çap kitablarının tərtibat səviyyəsini tək tərtibatçıların istedad və ustalıqları yox, həm də poliqrafiya texnikasının texniki imkanları müəyyənləşdirir. Mükəmməllikdən uzaq poliqrafiya texnikası tərtibatçıya fantaziyasını həyata keçirmək imkanı vermədiyi kimi, sadəcə mütalə vasitəsinə çevrilən kitab da oxucunun diqqətini özünə cəlb edə bilmir. Oxu vasitəsindən əlavə, həm də poliqrafiya məmulatı kimi tanıdığımız kitabın oxucuya təsirini tənzimləmək istəyiriksə, kitab sənətinin sirrlərinə və texnologiyanın incəliklərinə yiyələnməliyik. Nəşrin oxucuya təsir effekti, həm də ona sərf edilən materialların özəl xüsusiyyətlərindən asılıdır. Gündəgün yeniləşib mükəmməlləşən texniki avadanlıq və poliqrafiya texnikasının, çeşidi artan cild materiallarının kitabın poliqrafik icra və bədii-texniki tərtibatına göstərdiyi təsirin həcmi redaktorlardan hər yeni nəşrə təyinatına uyğun tərtibat verilməsini, deməli, daha uğurlu kompozisiya həlli tapılmasına cəhd edilməsini tələb edir" (səh.5).

İ.H.Ələsgərova burada məsələyə kompleks şəkildə yanaşıb, müəllifin oxucu arasında maddi vasitə olan nəşrin araya gətirilməsində texniki avadanlıqların imkanlarından, texnologiyanın inkişaf səviyyəsindən tutmuş bədii-texniki materiallara, ədəbi, texniki və bədii redaktorlara, texnoloqlara qədər kitabın ərəyə gətirilməsində rolu olmuş hə bir mütəxəssisin əməyini layiqincə dəyərləndirir, onlardan hər birinin bu vacib işin başa çatdırılmasında rolunu müəyyənləşdirir.

"Azərbaycan xalqının əl ilə kağızdan-kağıza köçürdüyü tarix və mədəniyyətini yazılarda qoruyub saxlamaqla hər biri tarixin bir səhifəsi, bir sosi olan 40 min addan çox sənəd, əlyazma və çap kitablarını (ərəb, fars, türk dilli) bugünkü nəsillərə gətirib çatdırdığını qeyd edən tədqiqatçı, diqqəti müasir çapa qədər mövcud olmuş çox əski yazı (əlyazma) ənənəsinə də yönəldir: "Orta əsrlərdə Səmərqənd, Buxara, Misir, İtaliya, Hollandiya,Təbriz və Rusiya kağızlarına yazılmış hər bir əlyazma, bu gün ora sər bədii-texniki kitab tərtibatını, miniatürləri və rəssamlıq məktəblərini, xətt və ornament növlərini, rəngarəng kitab cildlərini öyrənməyə imkan verən dəyərli mədəniyyət abidəsi kimi qorunub saxlanılır" (səh.15).

Deməli, müasir kitabşünaslığın bünövrəsi hardasa qədim əlyazmalardan başlanır. Əlyazma kitablarına verilən bədii tərtibat, onların rəsm və miniatürlərlə, ornamentlərlə süslənməsi kimi məsələlər bu günki kitabın bədii və texniki tərtibatındakı inkişafın ilkin təməlini taşkil edir. Lakin, elə burda onu da qeyd etmək gerəkdir ki, müəllif yazının təmol prinsiplərindən də xəbərsiz deyil və söhbəti buna yönəldərək yazır: «Hələ min illər bundan qabaq başlarına gələnləri sümük, qamış qələm, lələk, iyne, və s. ilə kaha və mağaraların divarlarında, daş və gil lövhələr üzərində qeyd edib, özləri də fərqinə varmadan əbədiləşdirən insanlar yazının başlanğıc tipi olan şəkli yazını yaratdılar. Hindistan, Misir kimi ölkələrdə şəkli yazının yaranması IV minilliyin sonu-III minilliyin əvvəllərinə, Azərbaycanda Orta



Tunc dövrünə, yəni yeni eradan əvvəl III minilliyin axırıncı rübü II minilliyin I yarısına təsadüf edir» (s.15).

Tədqiqatçı, daha sonra digər yazı və xətt növləri bərədə də məlumat verib, ümumiləşdirmə aparır: "Kitabın formalaşıb əhali arasında yayılmasına həlledici təsir göstərən iki vacib şərtdən birinin yazı olduğunu qəbul etsək, ikincisi, şübhəsiz, münasib yazı materialının (daş, gil, tunc, saxsı, çini qablar, ipək parça, papirus, pergament, kağız) tapılıb istifadə edilməsi olacaq" (səh.18).

Deməli, bu fikirdə əşlində sıra ilə yazıya alma sənətinin inkişaf mərhələləri sadalanır, yazı lövhələrinin ən çox təkmilləşdirilləşdirilmiş variantının müasir kağız olduğu (əlbəttə, burada mövzudan xaric olduğundan, elektron tablonun, lövhonin adı çəkilmir) aydın olur.

Daha sonra İradə xanım yazı materiallarına işarə ilə qeyd edir ki,: "yeni eranın əvvəllərində artıq üç yazı materialı arasında gedən seçim, regionun iqlimindən və yazı materialının keyfiyyətindən asılı olaraq bir halda papirusa, digər halda perqament və ya kağıza üstünlük verilməsi ilə nəticələnir: "Qurani- Kərim" üçün kağızdan daha davamlı olan perqament, quru iqlima malik ölkələr üçün isə, papirus daha əlverişli sayılırdı. Papirus üçün nəzərdə tutulmuş mürəkkəb rütubəti canına çəkən perqament üçün yaramır, onun tez sıradan çıxmasına səbəb olurdu (səh.21).

Tarix üzrə fəlsəfə doktoru İradə Ələsgərova bu minvalla kitab və kitabşünaslıq istiqamətində apaşdırma və təhlillər aparıb Azərbaycanda bu sahədə qazanılan nailiyyət və çatışmazlıqları saf-çürük edib sonda geldiyi nəticələri umumiləşdirmək-lə bir sıra dəyərli tövsiyyələrlə çıxış edir. Əlbəttə ki, müəllifin bu sahədə bildirdiyi iradlar və irəli sürdüyü təkliflər hamısı birbaşa Azərbaycanda redakte işinin, poliqrafiyanın və kitabşünaslığın ümumi inkişaf istiqamətinə xidmət edir. Onun bu sırada verdiyi təkliflərdən birinə diqqəti yönəltməkə, dediyimizin təsdiqini görə bilərik: "Bu gün hazırlanan kitablarda orijinalların təhrif olunmasının bir səbəbi də təcrübəli texnoloqların çatışmaması, təsadüfi şəxslərin bu işdən yapışmasıdır. Təsəvvüründə yaratdığı təsvirin istehsalat prosesində uğraya biləcəyi dəyişiklikləri əvvəlcədən göz önünə gətirib tərtibat planını mövcud təcrübə və normalar əsasında qurmağı bacarmayan bədii və ya texniki redaktorun işi müvəffəqiyyətlə nəticələnə bilməz! Hələ, Sovet hakimiyyəti illərində ümummilli lider H.Əliyevin şəxsi təşəbbüsü ilə SSRİ-nin iri şəhərlərində (Lvov və Moskva və s.) yerləşən ali təhsil ocaqlarında respublika üçün poliqrafiya mütəxəssislərinin hazırlanması problemi öz həllini tapsa da, müstəqillik illərində bu sahədə toplanılmış təcrübə afsus ki, unuduldu. Hal-hazırda respublikada poliqrafik icranı yüksək səviyyədə təmin edə biləcək ali təhsilli mütəxəssislər azlıq təşkil edir, üstəlik bu işin dərinliklərinə baş vura biləcək ədəbi, texniki, bədii redaktor, nəşir və dizaynerlərin hazırlığı da kor-təbii xarakter daşıyır. Halbuki ixtisaslı poliqrafiya mütəxəssisləri hazırlığının təşkili ilə bağlı Lvov, Moskva, Kiyev şəhərlərində yerləşən ali təhsil ocaqları ilə qarşılıqlı müqavilələrin bağlanılması, ya da BDU-nun "Kitabşünaslıq və nəşriyyat işi" kafedrasının bazasında nəşir, ədəbi və texniki redaktor, Azərbaycan İncəsənət Universitetinin "Qrafika" bölməsinin bazasında bədii redaktor və dizayner hazırlığının təşkili, o qədər də çətin başa gələn iş deyil" (səh.231-232).

Bir daha burada qoyulan problemlərə baxış bücağına diqqət yetirib əmin oluruq ki, "Azərbaycan kitabının bədii və texniki tərtibat tarixi" kitabında qaldırılan məsələlər həm Azərbaycanda kitabşünaslığın tarixi inkişaf yolunu izləmək, həm də bu istiqamətdə əldə olunmuş uğurlarla yanaşı, gerilələrin səbəblərinə də aydınlıq gətirmək olmuşdur ki, bütün bunlar da bütövlükdə ümumi bir məqsədi hədəfə götürür; kitabın bədii-texniki tərtibatında və ümumi kitabşünaslıqda, nəşriyyat-poliqrafiya sahəsində dönüş yaradıb hərtərəfli uğurlara nail olmaq.

Belə bir dəyərli monoqrafik tədqiqatla Azərbaycan kitabşünaslıq elminə fundamental əsər bəxş edən İradə xanım Ələsgərovaya bir daha çox sağ olun deyir, yeni-yeni uğurlar arzulayırıq.

Şakir ALBALIYEV,
filologiya üzrə fəlsəfə doktoru.
"Xudafərin"qəzetinin
baş redaktoru

P.S. *Biz də, "Kredo" qəzeti olaraq çoxsaylı həmkarlarımıza qoyulub İradə xanım Ələsgərovanın Milli Mətbuatımızın 140 illiyinə ithaf etdiyi nəfis tərtibatlı bu əsəri "Ali Media" mükafatına təqdim edilə biləcək ən layiqli nəşr kimi dəyərləndirir, kitab mədəniyyətimizin qədimliyini və zənginliyini bir daha təsdiqləyə isbata yetirən 1000 illik bədii və texniki tərtibat tariximizin tədqiqatçısını - bu məsuliyyətli işin ağırlığını zərif çiyinlərində daşıyan istedadlı tədqiqatçı alimi ürəkdən təbrik edir, ona gələcəkdə daha böyük uğurlar arzulayır!*

2015